**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**BAKALAVRLAR ÜÇÜN**

**İxtisas:** **050215 – Tərcümə**
**050205 – Filologiya**
**050212 – Regionşünaslıq**

**Ərəb ölkələrinin etnoqrafiyası fənninin**

# P R O Q R A M I

**BAKI – 2023**

**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**F.ü.f.d., dosent GÜLNUR YAQUB qızı MAHMUD**

**bakalavrlar üçün**

**İF–B03**

**İPFS – B05**

**ATMFS – B03**

# Ərəb ölkələrinin etnoqrafiyası fənninin

# P R O Q R A M I

**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Bakı Dövlət Universiteti Şərqşünaslıq fakültəsinin Ərəb filologiyası kafedrasının 05 aprel 2023-cü il tarixli 08 saylı iclasında təsdiq edilmiş və çapa tövsiyə olunmuşdur**

**BAKI – 2023**

**Tərtib edənlər:** **Gülnur Yaqub qızı Mahmud**
filologiya üzrə fəlsəfə doktoru, dosent
Bakı Dövlət Universiteti

**Elmi redaktor:** ***Vüqar Aydın oğlu Qaradağlı***
filologiya üzrə fəlsəfə doktoru, dosent
Bakı Dövlət Universiteti

**Rəyçilər:** **Çinarə Tofiq qızı Mütəllimova**
filologiya üzrə fəlsəfə doktoru, dosent
Bakı Dövlət Universiteti

**Təranə Əkrəm qızı Əkbərova**
filologiya üzrə fəlsəfə doktoru, dosent
Bakı Dövlət Universiteti

Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakultəsinin Ərəb filologiyası kafedrasında hazırlanmış bu proqram I kurs regionşünaslıq, tərcümə və filologiya (ərəb dili və ədəbiyyatı) bölməsinin bakalavr pilləsində təhsil alan tələbələr üçün nəzərdə tutulmuşdur. Proqramın məqsədi tələbələrə dilini öyrəndikləri ərəb ölkələrinin etnoqrafiyası, tarixi və onun müxtəlif sahələri haqqında yığcam məlumat vermək və kompleks bilik formalaşdırmaqdan ibarətdir.

## Ərəb ölkələrinin etnoqrafiyası fənni üzrə proqramın

## İzahat vərəqi

Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin Ərəb filologiyası kafedrasında onun indeksinə uyğun fənlərin tədrisi xüsusi əhəmiyyət kəsb edir. Hər hansı bir xalqın dilini öyrənməklə yanaşı, o xalqın tarixi, ölkəsinin coğrafiyası, siyasi və inzibati quruluşu, dövlət idarəçiliyi, iqtisadiyyatı, mədəniyyəti və s. haqqında da müəyyən elmi -praktik bilik əldə etmək zərurəti yaranır. Bu proqram tələbələrdə ərəb ölkələrinin etnoqrafiyasına dair bütöv təsəvvür yaratmaq və lazımi biliklər formalaşdırmaq üçün tərtib edilmişdir.

Proqram Bakı Dövlət Universitetinin Şərqşünasliq fakültəsi Ərəb filologiyası kafedrası üzrə bakalavr pilləsinin tələbələri uçün nəzərdə tutulmuşdur. Fakültənin ərəb şöbəsinin regionşünaslıq, filologiya və tərcümə ixtisasları üzrə təhsil alan tələbələrinə tədris olunan bu fənn 45 saat həcmində nəzərdə tutulur. Semestr boyu bərabər şəkildə bölünməklə nəzəri hissə 30 saat mühazırə və 15 saat seminarı əhatə edir. Bu hissədə ərəb ölkələrində yaşayan xalqlarının məişət və mədəniyyətindən, adət-ənənələri, etnik birliklərin yaranması və inkişafından, onların yayılması və qarşılıqlı mədəni əlaqələrindən bəhs edilir.

Praktik məşğələlər isə mövcud bölgü üzrə aparılan mühazirə dərslərinin mətnləri əsasında Ərəb ölkələrinin etnoqrafiyası fənninin müxtəlif məsələləri üzrə bir sıra məşğələlərin keçirilməsini nəzərdə tutur.

Proqram habelə, etnoqrafiya fənninin mövzusu, onun məqsəd və vəzifələri, etnoqrafiya ilə bağlı ilk terminlərin meydana gəlməsi, ərəblərəin etnopsixologiyası, adət və ənənələrin ərəb cəmiyyətində rolu, ərəb dünyasında yaşayan əsas xalqların və etnosların, o cümlədən qibti, bərbər, sabii, druz, maroni, bərbər və bu kimi digər azsaylı xalqların məişət və mədəniyyəti, adət-ənənələri, qonaqpərvərlik, diplomatik və ticari etiketlər, ərəblərin evlilik, toy, boşanma və digər məişət problemləri ilə bağlı ənənələri, adqoyma ilə əlaqədar mərasimlər, milli ərəb mətbəxi, ənənəvi yaşayış yerləri, milli ərəb geyimləri, dini və milli bayramlarla bağlı mərasimlər və bu kimi əsas nəzəri məsələləri şərh etmək məqsədi güdür.

Proqramda əsasən,

- ərəb dili öyrənən tələbələri ərəblər və ərəb ölkələrində yaşayan xalqlarının məişət və mədəniyyəti, adət-ənənələri, bu ərazidə etnik birliklərin yaranması və inkişafı, onların yayılması və qarşılıqlı mədəni əlaqələrinin tarixi və hazırki vəziyyəti və onun əsas prinsipləri ilə tanış etmək;

- fənnin dərindən mənimsənilməsi üçün onlarda əsaslı nəzərı və əməlı bazanın yaranmasını təmin etmək;

- fənnin uğurlu mənimsənilməsi üçün adı çəkilən fənnin təcrid edilmiş deyil, onun digər predmetlər, məsələn, ərəb ölkələri tarixi, ölkəşünaslıq, ərəb ədəbiyyatı və bu kimi digər fənnlərlə çulğalaşdıraraq tədris olunmasına cəhd göstərmək və tələbələrdə region barədə ilkin təsəvür yaratmaq kimi digər məsələlər də ön plana çəkilir.

Əsas məqsədlərdən biri də, ərəb ədəbi dilini öyrənən tələbənin, təkcə həmin dilin qanunauyğunluqlarını öz ana dilində tətbiq etməsinə və ya əksinə olan prosesi təmin etməsinə çalışmaqla bərabər, ona digər yardımçı fənlərin, habelə **Ərəb ölkələrinin etnoqrafiyası** fənnini təcrid olunmuş halda deyil, onu bir sıra əlaqədar fənlərin sintezində çulğalaşdıraraq tədris etməkdir.

Mühazirə mətnləri ilə yanaşı bu kurs, həm də özündə on beş saat praktik məşğələni də ehtiva edir ki, bu prosesdə tələbələrə etnoqrafiya ilə bağlı ilk terminlərin meydana gəlməsi, ərəblərəin etnopsixologiyası, adət və ənənələrin ərəb

cəmiyyətində rolu, müsəlman və xristian ərəblər, qonaqpərvərlik, diplomatik və ticari etiketlər, ərəblərin evlilik, toy, boşanma və digər məişət problemləri ilə bağlı ənənələri, adqoyma ilə əlaqədar mərasimlər, milli ərəb mətbəxi, ənənəvi yaşayış yerləri, milli ərəb geyimləri, dini və milli bayramlarla bağlı mərasimlər, ərəb dilinin çoxsaylı ləhcələri və bu kimi bir sıra məsələlərdən bəhs edən materiallar təqdim olunur.

Fənnin istər nəzəri, istərsə də praktik hissəsində qarşıya qoyulan əsas məqsədlərdən aşağıdakıları sadalamaq olar:

tələbələri etnoqrafiya fənninin aktual məsələləri və hazırki durumu ilə məlumatlandırmaq;

tələbələrə ərəb ölkələrinin etnoqrafiyası fənnini dərindən mənimsəmək üçün müəyyən tövsiyələr vermək;

**Ərəb ölkələrinin etnoqrafiyası** fənnini təcrid olunmuş halda deyil, onu digər filoloji və humanitar yönümdə olan fənlərin (ərəb dili, ərəb ədəbiyyatı, ərəb ölkələrinin mədəniyyəti və incəsənəti, ölkəşünaslıq və s.) sintezində çulğalaşdıraraq tədris etmək**;**

tələbələri müasir coğrafi ədəbiyyat, xəritə və atlaslar ilə tanış etmək.

## Mövzular üzrə saatların bölgüsü:

| № | Mövzular | Mühazirə | Məşğələ |
|---|---|---|---|
| 1. | Etnoqrafiya elminin predmeti və vəzifələri | 2 | |
| 2. | Etnoqrafiya elmi və onunla bağlı terminlər | 2 | |
| | Etnoqrafiya elminin predmeti və vəzifələri**,** Etnoqrafiya və onunla bağlı terminlər **mövzuları** üzrə məşğələ | | 2 |
| 3. | Adət və ənənələrin ərəb cəmiyyətində rolu | 2 | |
| 4. | Qonaqpərvərlik, diplomatik və ticarətlə bağlı etiketlər | 2 | |
| | Adət və ənənələrin ərəb cəmiyyətində rolu və Qonaqpərvərlik, diplomatik | | 2 |

| | | | |
|---|---|---|---|
| | və ticarətlə bağlı etiketlər mövzuları üzrə məşğələ | | |
| 5. | Ərəb ailəsində qadın və uşağın yeri və mövqeyi | 2 | |
| 6. | Ərəblərin nikah, evlilik, toy və boşanma ilə bağlı adətləri | 2 | |
| | Ərəb ailəsində qadın və uşağın yeri və mövqeyi və Nikah, evlilik, toy və boşanma adətləri mövzuları üzrə məşğələ | | 2 |
| 7. | Yaşlı insanların ərəb cəmiyyətində mövqeyi | 2 | |
| 8. | Ənənəvi ərəb geyimləri | 2 | |
| | Yaşlı insanların ərəb cəmiyyətində mövqeyi Ənənəvi ərəb geyimləri mövzuları üzrə məşğələ | | 2 |

| | | | |
|---|---|---|---|
| 9. | Ənənəvi ərəb evləri və yaşayış məkanları | 2 | |
| 10. | Milli ərəb mətbəxi | 2 | |
| | Ərəb evləri və yaşayış məkanları və milli ərəb mətbəxi mövzuları üzrə məşğələ | | 2 |
| | Müsəlman ərəblər | 2 | |
| | Druzlar | 2 | |
| | Müsəlman ərəblər və druzlar mövzuları üzrə məşğələ | | 2 |
| | Xristian ərəblər, sabiilər və maronilər | 2 | |
| | Qibtilər | 2 | |
| | Sabiilər, maronilər və qibtilər mövzuları üzrə məşğələ | | 2 |

| | | | |
|---|---|---|---|
| | Şimali Afrika ərəbləri, bərbərlər | 2 | |
| | Şimali Afrika ərəbləri və bərbərlər mövzusu üzrə məşğələ | | 1 |
| | CƏMİ | **30** | **15** |

## Mövzular və onların məzmunu

### Birinci mövzu: Etnoqrafiya elminin predmeti və vəzifələri

Etnoqrafiya dünya xalqlarının həyat və məişətindən bəhs edən elmdir və bu elm bəzən etnologiya da adlanır. Məişət dedikdə fərdi və ictimai həyatda bərqərar olunmuş ənənəvi formaların başa düşülməsi. Hər bir xalqın özünə məxsus məişət formasına malik olması, ayrı-ayrı xalqlarda bu kimi məsələlərin çox vaxt bir-birindən köklü surətdə fərqlənməsi.

## İkinci mövzu: Etnoqrafiya elmi və onunla bağlı terminlər

Maddi və mənəvi mədəniyyətin öyrənilməsi ilə məşgul olan etnoqrafiyanın əsas vəzifəsi olaraq keçmişdən başlayaraq müasir dövrümüzədək hər bir xalqın, millətin və etnosun simasını tədqiq etmək. Habelə bu mənada problemin, həm geridə qalan, həm də inkişaf etmiş mütərəqqi xalqlara eyni səviyyədə şamil edilməsi. Bu zaman etnoqrafın bir xalqı digərindən ayıran xüsusiyyətlərlə yanaşı, onlar üçün müştərək olan keyfiyyətləri də araşdırması zərurəti. Hər bir xalqın məişət və mədəniyyətinin həm ümumi, həm də səciyyəvi əlamətləri müəyyən bir dinamikada - tarixi inkişaf səviyyəsində tədqiqi edilmə gerçəkliyi. Etnos, etnik birliklər və etnokonfessional birliklərin tədqiqi və ilkin məlumatlar.

## Üçüncü mövzu: Ərəblərin tarix səhnəsinə gəlişi. Qədim ərəb köçləri və dövlətləri. Adət və ənənələrin ərəb cəmiyyətində rolu

Ərəblərin tarix səhnəsinə gəlişi, qədim ərəb dövlətləri, adət-ənənələrin nəsildən nəsilə keçən, uzun müddət müəyyən

cəmiyyət və sosial qruplar arsında qorunub saxlanılan mədəni irsin elementlərini özündə əks etdirməsi. Hər bir ərəb ölkəsində ümumi qəbul edilmiş ənənələrlə yanaşı, kökləri islamdan öncəyə gedib çıxan yerli adət-ənənələrin də mövcud olması. Ümumi ənənələr çərçivəsində üç əsas davranış normativ sisteminin müəyyənləşdirilməsi: *muruvva, asabiyyə və din.* Qərbləşmə siyasətinin ərəb ölkələrində ayrı-ayrı adət-ənənələrə, habelə ailə münasibətlərinə tədricən təsir etməsi və müasir dəyərlərin ənənəvi dəyər və təsəvvürlərə dağıdıcı təsiri.

**Dördüncü mövzu: Qonaqpərvərlik, diplomatik və ticarətlə bağlı etiketlər.**

Qonaqpərvərlik, diplomatik və ticari etiketlərin ərəb həyatında və məişətində mühüm əhəmiyyət kəsb etməsi. Səhər, günorta və axşam yeməkləri zamanı riayət olunmalı əsas məsələlər. Qonaq qəbul etmə və yola salma zamanı nəzərdə tutulan rituallar. Qəhvə hazırlanması və içilməsi ilə bağlı əsas adət- ənənələr. Ticarət və bazar qanunları. Hədiyyə və suvenirləri təqdimetmə ilə bağlı xüsusi qaydalar.

**Beşinci mövzu: Ərəb ailəsində qadın və uşağın yeri və mövqeyi**

Müasir müsəlman ideoloqlarının qadın azadlığı ilə bağlı görüşlərinin tədqiqi. Öz fikirlərini Qurandan, eyni zamanda sünnə və şəriətdən gətirilən sitatlarla əsaslandıraraq müsəlman ideoloqlarının qadının təhsil alma, cəmiyyətin siyasi-sosial və mədəni həyatında iştirak etmə hüququndan, habelə işləmək hüququndan bəhs etmələri. Bu məzmunda Quranin Nisa surəsi və təhlili. Qadına qarşı ədalətsizliyin aradan qaldırılması, onun müasir sivilizasiyanın normalarına uyğun yeni mədəniyyətin formalaşmasının birbaşa "informasiya inqilabı" ilə bağlı olması.

**Altıncı mövzu: Ərəblərin nikah, evlilik, toy və boşanma adətləri**

Ərəb cəmiyyətində nikah və evliliyin istənilən bir gəncin həyatında ən vacib hadisə hesab edilməsi. Nikah və evlilik məsələlərinin Misir, Tunis, Mərakeş, Suriya, İordaniya, İraq kimi dövlətlərin qanunvericiliyində təsviri. Müsəlman qadının qeyri-müsəlman biri ilə ailə qurmasının müxtəlif ölkələrin qanunvericiliyində hüquqi ifadəsi. Təkarvadlılıq və çoxarvadlılığın ərəb ölkələri qanunvericiliyində hüquqi ifadəsi.

**Yeddinci mövzu: Yaşlı insanların ərəb cəmiyyətində mövqeyi**

Yaşlı insanlara münasibət mövzusunun hələ Cahiliyyət dövrü ərəb poeziyasında öz əksini tapması. İslamın gəlişi ilə yaşlı insanlara olan münasibət dəyişməsi və bir sıra müddəaların Quran və hədislərdə öz əksini tapması. Ərəb-müsəlman ənənəsinə görə valideyn qarşısında borcun yerinə yetirilməsinin Allaha olan inam və ona ibadət etmə ilə eyni səviyyədə tutulması. Valideynə və yaşlılara hörmət çağırışlarının Quranın müxtəlif surələrində təcəssümü.

**Səkkizinci mövzu: Ənənəvi ərəb geyimləri**

Ənənəvi ərəb geyimləri, onların forma və növləri. Ərəblərin geyimlərinin bayram və mərasim libasları olmaqla üç əsas yerə ayrılması. Din xadimlərinin müxtəlif dini ayinlərin icrası zamanı geyindiyi geyimlər. Qibti, bərbər, sabii, druz və maronilərin bayram və mərasim libasları. Ərəblərin milli xalq geyimlərinin insanların etnik mənsubiyyətinin təyin edilməsində əsas əlamətlərdən birinin sayıması. Müsəlman ərəblərin əksəriyyətinin İslamın geyimlə bağlı tələb və təlimatlarına riayət etməyə çalışması. Avropa mədəniyyətinin nüfuz etdiyi Livan, Misir, Mərakeş, Tunis, Suriya kimi ölkələrdə müsəlman qadınlarının qismən və ya tamamilə

hicabdan imtina etməsi, və ya onun sadələşdirilmiş variantından yayarlanmaları.

**Doqquzuncu mövzu. Ənənəvi ərəb evləri və yaşayış məkanları**

Yaşayış məkanlarının ərəb aləminin bu və ya digər regionunun təbii iqlim şəraitindən və yerli adət-ənənələrdən çı-xış edilərək inşa edilməsi. Yaşayış məkanlarının memarlığında qədimdən bəri daxili həyətləri və dözülməz istidən qoruyan terrasları olan evlərin tikilməsinə üstünlük verilməsi və bu amilin memarlıq texnikasında gil, kərpic və daşdan ibarət olan xüsusi konstruksiyaların inşasının əsas səbəblərdən birinə çevrilməsi. Orta əsr və incəsənətinin bir çox şedevrlərinin müəllifi olan ərəb memarlarının memarlığın dekorativ imkanlarına çox böyük diqqət ayırması və monumental memarlıqda və tikintidə arxitektura və incəsənət sintezinin ən xarakterik əlamətlərindən biri dekorativ forma və ornamentlərin xüsusi rol oynaması. Evlərin tikintisində samanla qarışdırılmış gilin istilikkeçirməmə keyfiyyətinə malik olduğu üçün ondan günün altında qurudulan kərpiclərin hazırlanması və azmərtəbəli evlərin tikintisində istifasi. Ərəb dekorativ - tətbiqi

sənətinin ən parlaq və xarakterik nümunələrindən olan *məşrabiyyə* və növləri.

**Onuncu mövzu: Milli ərəb mətbəxi**

Ərəblərin mətbəx industriyasında istifadə etdikləri əsas qida maddələri və ərzaqlar, onlardan hazırlanan yemək növləri, əlavə xarakterik komponentlərin mövcudluğu (ədviyyat və souslar), ərzaqların emalı və yeməklərin hazırlanma yolları, qida məhdudiyyətləri. Üstünlük verilən və qadağan olunan məlzəmələr, qidanın hazırlanması və qəbulu ilə bağlı davranış qaydaları. Köçəri, yarımköçəri və oturaq əhalinin yeməklərinin hazırlanma üsulları, qida məhdudiyyətləri, üstünlük verdikləri məmulatlar. Quru yeməklər və əsas sulu yeməklərdən sayılan *kişk, halbi, fatita, təşrib havasid, məşlut dibs, muqliyyə, mubassaliyə*nin mövsümi və regional xüsusiyyətləri və fərqləri.

**On birinci mövzu: Müsəlman ərəblər. İslamın meydana gəlməsi və intişar tapması. Qurani Kərim**

İslamın yaranma tarixi, əsas prinsipləri, peyğəmbərlər və müqəddəs kitablar, qiyamət günü, habelə namaz, dua-ibadət və zəkat (sədəqəvermə), həcc mərasimi haqqında ümumi məlumat. İlahi kitab Qurani Kərimdə islamın əsas prinsiplərinin,

peyğəmbərlər və müqəddəs kitablar, qiyamət günü, habelə oructutma, namaz, həcc və bu kimi digər ayinlərın təsviri və bununla əlaqədar əsas surə və ayələr haqda məlumat.

Müsəlman və inanclı ərəblərin həyat tərzinin, dini və ictimai fəallığının, ailə, məişət və gündəlik rutinlərinin birbaşa İslamla bağlı olması. Əsas məzhəb və təriqətlər haqda ümumi məlumat: ***hənəfilik, şafiilik, malikilik və hənbəlilik.***

## On ikinci mövzu: Druzlar

İsmaillilik təriqətinə mənsub druzların  (və ya dürzilər) həyat, məişət, dini təlimləri və tarixi haqda yığcam məlumat. XI əsrin əvvəllərində Misir və Cənubi Livan ismailliləri arasında təbliğat aparan batini vaiz Dərazinin (təriqətin adı da məhz buradandır) əsas fəaliyyəti. Misirli ismailiyyə tərəfdarları və ardıcılları haqqında ümumi məlumat. Xəlifə Əl-Hakimi (996-1021). Görkəmli ismailiyyə filosofu ***Həmid əd-Din əl-Kirmani.*** Druzların dini doktrinasının işlənməsi və Həmzə İbn Əli. ***XV*** əsrdə dini doktrinanın işlənib hazırlanmasında ***Əs-Seyyid Abdullah Ət-Tənuhinin*** (1417-1479) xidmətləri. **Cəbəl Druz** ümumsuriya milli üsyanının mərkəzi kimi. Druzları digər

ərəblərdən fərqləndirən əsas xüsusiyyətin baş örtüyü olan kufiyyədəki ( كوفية, kufiyyə, həmçinin - *shemağ, keffiyeh, ğutra, hatta* da deyilir, ərəb ölkələrində məşhur olan kişi baş örtüyüdür, baş və üzü günəşdən, qumdan və soyuqdan qorumağa xidmət edir, adətən (lakin həmişə deyil) kufiyyə qara halqa ilə geyinilir ki, buna da ugal, ərəbcə عقال deyilir) qara zolaqların olmaması və bu fərqin əsas milli xüsusiyyət kimi səciyyələnməsi.

**On üçüncü mövzu: Xristian ərəblər, sabiilər və maronilər**

Sabiilik dini qədim Babillilərə, İranlılara, Yahudilərə və Xristianlara aid dini düşüncələrin və etiqadların sintezi kimi. Qurani-Kərimdə Sabii deyilən bu məzhəbin mənsublarının m*andailər* olaraq qeyd edilməsi və yunanca ***qnosis*** sözünün sinonomi olan ***manda*** kəlməsindən yaranması ehtimalları. Bəqərə, Həcc, Maidə və digər surələrdə sabiilər və onlarıb dini təlimləri haqqında ümumi məlumatlar. Sabii olduqlari haqda məlumat verilən Bəni-ləhm, Bəni-tay, Bəni-qeys, Bəni-misəm, Bəni-əsəd və digər qəbilələr haqda ümumi bilgilər. Sabiilərin əsas hissəsinin subtə, sabiə əl Bətaih, məndai, muğtəsələ və nasuri adları ilə də qeydə alinmaları. Sabiilərın dini inancları,

namaz, oruc və bu kimi dini ayinləri və müqəddəs kitabları "Gənza Rəbba" (Böyük xəzinə) haqda ümumi məlumat.

**Maroni (Maruni) Katolik Kilsəsi ( الكنيسة الأنطاكية السريانية المارونية )**, qədim xristian kilsəsi olaraq, patriarxlıq statusuna sahib olan altı Şərqi Katolik kilsəsindən biri kimi. Druzların 1860-cı ildə Türk hakimiyyəti ilə ittifaqda törətdikləri Maroni souqırımlarının maronitlərin Livandan davamlı mühacirəti və onların Argentina, Braziliya, Amerika Birləşmiş Ştatları, Meksika, Avstraliya və digər regionlarda məskunlaşmaları və bu ölkələrin diaspora və icmaların yaranmasında əsas səbəbi kimi. Maroni etnosunun dini ayinləri, mədəniyyəti, evlilik, usaq doğulması ilə bağlı inanclar, nikah, toy və dəfn mərasimləri ilə əlaqədar adət və ənənlər.

## On dördüncü mövzu: Qibtilər

**Qibtilərin** tarixi, həyat tərzi, məişət, dini təlimləri, dini və milli bayramları, nikah, evlilik, boşanma, adqoyma və bu kimi mərasimlərlə bağlı adət və ənənələri haqda yığcam məlumat. Qibtilər Abbasilər xilafəti dövründə. Qibtilərə qarşı çıxarılan bir sıra məhdudlaşdırıcı qətnamələr. Qibtilər Fatimilər dövründə. Qahirənin ən qədim məscidinin yanında Müqəddəs

Merkuri monastrının inşa edilməsi. XIX-XX əsrlər qibti kilsəsinin tarixində yeni mərhələ kimi. Dövrün patriarx **Kirill** və onun xələflərinin fəaliyyəti nəticəsində dirçəliş mərhələsi kimi səciyyələnməsi. Yeni dini məktəblər və məbədlərın inşası, kilsə mətbuatının yenidən bərpası. 1875-ci ildə Qahirədə açılmış dini seminariyanın 1961-ci ildə yeni binaya köçürülür və bir neçə ildən sonra o, Heluan rahib məktəbinə birləşməsi. 1967-ci ildə Qahirədə ***Müqədddəs Mark*** baş qibti kilsəsinin inşası və onun yaxınlığında Qahirənin ali-dini məktəbi olan Qibti İnstitutunun fəaliyyətə başlaması.

Qibti yazısı, əlifbası və mədəniyyəti, evlilik, usaq doğulması ilə bağlı inanclar, dəfn mərasimləri ilə əlaqədar adət və ənənlər. Qibti musiqisi və əsas milli və dini bayramlar.

## On beşinci mövzu: Bərbərlər

Şimali Afrikanın yerli əhalisinə aid olan xalqlar qrupu olmaqla özünü amaziq və ya amaxaq adlandıran etnosa bu adın ilk dəfə romalılar tərəfindən verilməsinə dair tarixi məlumat. Elmi ədəbiyyatda onların həmçinin “troqloditlər (mağarada yaşayanlar)” kimi də təqdim edilməsi. Mərakeş bərbərlərinin özlərini “imaziqxen” - “azad adam” adlandırması ilə bağlı elmi

mülahizələr. Bərbərlərin milli xüsusiyyətləri (xalqların təsnifatı) - aqmarlar, imzranlar, kabillər, şaviyyalar, mzabitlər, tamaziqxt və tuareqlər haqda ümumi məlumat. Mərakeş brabraları və şlexleri. Mavrlar haqda ümumi bilgilər. Özlərini "imoşaq" ad-landıran tuareqlər əsas döyüşkən etnos kimi. Məgrib, Liviya və Əlcəzairdə bərbərlərin milli-azadlıq mübarizələri və əsas səciyyəvi cəhətləri.

Bərbərlərin dili və mədəniyyəti, dövri mətbuat, mədəniyyəti, evlilik, usaq doğulması ilə bağlı inanclar, dəfn mərasimləri ilə əlaqədar adət və ənənlər. Bərbər musiqi alətləri və əsas milli və dini bayramlar.

**Fərdi iş mövzuları:**

1. Ərəblərin tarix səhnəsinə gəlişi. Qədim ərəb köçləri və dövlətləri
2. Ərəb İmperiyasının (xilafətin) tərəqqi və tənəzzül mərhələləri
3. İslamın meydana gəlməsi və intişar tapması. Qurani Kərim.
4. Milli-azadlıq müharibələri. Müasir müstəqil dövlətlərin qurulması. Ərəb liderlərin prinsip və islahatları
5. Panərəbizm cərəyanı və nümayəndələri

6. Ərəb ölkələrinin iqtisadiyyatı.
7. Ərəb ölkələrinin dövlət quruluşları. İdarəetmənin əsas prinsipləri.
8. Ərəb ölkələrində təhsil və səhiyyə
9. Ərəb ölkələrində dini və milli bayramlar. Ərəblərin mətbəx mədəniyyəti
10. Milli ərəb geyimləri, regional və mövsümi xüsusiyyətlər
11. Ərəb dilinin keçdiyi tarixi inkişaf yolu.
12. Ərəb ədəbiyyatı və inkişaf mərhələləri, son antik - cahiliyyət dövrü, müəlləqələr və müəllifləri
13. İlkin İslam, Əməvilər və Abbasilər dövrləri, yeniləşmə dövrü ədəbiyyatı, məqamə janrı
14. Ərəb-ispan ədəbiyyatı, ərəb-məhcər ədəbiyyatı və əsas nümayəndələri, müasir dövr ərəb ədəbiyyatı
15. Ərəb mədəniyyəti və incəsənəti. Ərəb dünyasının kütləvi-informasiya vasitələri.

## İstifadə olunmuş ədəbiyyatın siyahısı:


### Azərbaycan dilində

1. Qasımova A.Ş. Ərəb ədəbiyyatı. V-XIII əsrlər, Bakı, Elm, 2019, 676 s
2. Quliyeva Nərgiz, Etnoqrafiya və etnologiya, ADPU, 2009, 158 s
3. Mütəllimova Ç.T. Klassik ərəb ədəbiyyatı müntəxəbatı, Bakı, AFPoliqrAF, 192 s
4. Həvilov H.A. , Sadıxov A.İ. Etnoqrafiyanın əsasları. Bakı, 1974, 267 s
5. Soltanova H., Məmmədov C. Yaxın və Orta Şərq ölkələrinin iqtisadi və sosial coğrafiyası, Bakı -2008, 304 s.

### Rus dilində

6. Ахунов А.М. Основы этнографии стран арабского востока, Казань 2014, 335 с
7. Бромлей Ю.В. Этнос и этнография. М.,1973, 239 с
8. Бромлей Ю.В. Современные проблемы этнографии. М.,1981, 223 с
9. Васильев Л.С. История Востока: В 2 т., М.: Высш.шк., 2003
10. Власова Ю.Е. Курс лекций по лингво страноведению (арабские страны), Москва, 2010, 293 с
11. Итс Р.Ф. Введение в этнографию. Л.,1974, 378 с
12. Ковыршина Н.Б. Арабские страны.

Лингвострановедение. М.: АСТ: Восток-Запад, 2006, 205 с
13. Родионов М.А. Ислам классический. – СПб.: «Азбука-класса»; «СПб Востоковедение», 2003, 197 с
14. Рыжов К.В. Все монархии мира. Мусульманский Восток VII – XV вв. – М.: Вече, 2004, 220 с
15. Степанова А.В. Методологические аспекты развития лингвострановедческих курсов (на примере курса «Страноведение. Арабские страны»). Oriental Studies. 2016; 9(3): 148-163
16. Токарев С.А. История зарубежной этнографии. М., 1978, 366 с
17. Шумов С.А., Андреев А.В. История Ближнего Востока. М.: Евролинц, 2002, 233 с.

**İngilis dilində**

18. Fetterman, D. Ethnography: Step by Step, Third edition, Thousand Oaks CA, Sage, 2009
19. Spradley, James P. The Ethnographic Interview. Wadsworth Group/Thomson Learning, 1979
20. Van Maanen, John, Tales of the Field: On Writing Ethnography Chicago: University of Chicago Press, 1988.

**Internet resurslarında**

21. https://www.jadaliyya.com/Details/35162
22. https://www.jstor.org/stable/3034962
23. https://www.tandfonline.com/doi/abs/10.1080

24. https://www.researchgate.net/publication/317199351_Commentary_on_'Ethnography_as_Knowledge_in_the_Arab_Region'_by_Roosbelinda_Cardenas